**International Theatre Institute ITI**
**World Organization for the Performing Arts**

## Beynəlxalq Teatr Günü 2014

## Brett Baileyin müraciəti

İnsan cəmiyyətinin mövcud olduğu hər yerdə dinclik bilməyən İfaçı ruhu meydana çıxır.

Kiçicik kəndlərdə bitən ağacların altında, nəhəng meqapolisin yüksək texnologiyalı düşərgələrində, məktəb zallarında, vilayətlərdə və məbədlərdə, xarabalıqlarda, şəhər meydanlarında, ictimai mərkəzlərdə və kasıb məhəllələrin zirzəmilərində insanlar bizim yaratdığımız müvəqqəti teatr dünyasında ünsiyyətdə olmaq, bizim insan kimi mürəkkəbliyimizi, müxtəlifliyimizi, canlı cismimizdəki, nəfəsimizdəki, səsimizdəki zəifliyi duymaq üçün toplaşırlar.

Biz ağlamaq və xatırlamaq, gülmək və dərk etmək, öyrənmək və təsdiq etmək, təsəvvür etmək, təcrübə ilə maraqlanmaq və allahları ifadə etmək üçün toplaşırıq. Müxtəlif mədəniyyətlərimizin zənginliyini bayram etmək və bizi ayıran sərhədləri aradan qaldırmaq üçün biz daha güclü və səlahiyyətli olmalıyıq.

İnsan cəmiyyətinin mövcud olduğu hər yerdə dinclik bilməyən İfaçı ruhu meydana çıxır.

Cəmiyyətin yaratdığı bu ruh müxtəlif ənənələrin maska və geyimlərini daşıyır. O, bizim dil, ritm və jestlərimizdən istifadə edərək aramızdakı məkanı təmizləyir və bu qədim ruhla işləyən biz artistlər onu zorən öz qəlbimizdən, ideyalarımızdan və cismimizdən keçirərək öz reallıqlarımızı bütün mənasızlığı və göz qamaşdıran sirri ilə birgə göstəririk.

Milyonlarla insanların sağ qalmağa çalışdığı, təcavüzkar rejimlərin və yırtıcı kapitalizmin törətdiyi bəlalardan əzab çəkdiyi, konfliktlərdən və çətinliklərdən xilas olmağa çalışdığı bir dövrdə, xüsusi xidmət orqanlarının bizim şəxsi həyatımıza qarışdığı, sözlərimizin hökumət tərəfindən senzuraya məruz qaldığı, meşələrin məhv edildiyi, bir çox canlı növlərinin qırıldığı, okeanların zəhərləndiyi bir zamanda biz tamaşaçıya nə göstərməyi zəruri hesab edirik?

Bu qeyri-bərabər hakimiyyət dünyasında müxtəlif hegemonçu qaydalar bizi inandırmağa çalışır ki, guya hər hansı bir xalq, irq, cinsi meyllər, din, ideologiya, mədəni strukturlar digərlərindən üstündür. Bu bir daha inamla təsdiq etmirmi ki, incəsənət sosial proqramlardan azad olmalıdır?

Əlbəttə ki, bizlər – meydan və səhnə artistləri bazarın yaxşılaşdırma tələblərinə müvafiq olaraq öz hakimiyyətimizi əldə saxlamalı, cəmiyyətin düşüncəsində və qəlbində özümüzə yer tutmalı, insanları ətrafımızda toplayaraq onları ruhlandırmalı, heyran etməli, məlumatlandırmalı, ümid dolu, saf niyyətli əməkdaşlıq dünyası yaratmalıyıq.

Translation: Azerbaijan Centre of ITI